Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər Seriyası 2019-№2 Серия общественно-политических наук

## DÜNYA SİYASƏTİ VƏ TARİX

## МИРОВАЯ ПОЛИТИКА И ИСТОРИЯ

**Allahverdiyeva Gültəkin Afət qızı**
*Gəncə Dövlət Universiteti*
gultekin-allahverdiyeva@mail.ru

# XIV-XV ƏSRLƏRDƏ OSMANLI DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ

***Açar sözlər:*** *xristian dövlətləri, feodal sinfi, Balkan dövlətləri, feodal dağınıqlığı, Osmanlı imperiyası, imperatorluq, Konstantinopol, Bizans məsələsi.*

***Ключевые слова:*** *христианские государства, феодальный класс, Балканские государства, феодальная раздробленность, Османская империя, империя, Константинополь, Византия.*

***Key words:*** *Christian states, feudal class, Balkan states, feudal disintegration, Ottoman Empire, imperialism, Constantinople, Byzantium.*

XIII əsrin sonu XIV əsrin əvvəllərində Səlcuq sultanlığının süqutundan sonra onun ərazilərində on bəylik yaranmışdır, onlardan biri də Osmanlı bəyliyi idi. Osman bəy tərəfindən yaradılan Osmanlı dövləti, türk xalqlarının və Cənubi-Şərqi Avropa xalqlarının tarixində mühüm rol oynamışdır və Kiçik Asiyaya və Balkan yarımadasına hərbi yürüşləri nəticəsində böyük imperiya çevrilmişdir.

Tarixdə ən böyük imperiyalardan biri olan Osmanlı dövləti, XIV-XV əsrlərdə fəal xarici siyasət yürütmüşdür. Məhz bu dövrdən başlayaraq Osmanlı dövləti Balkanlarda möhkəmlənməyə başlamışdır. Lakin tarixdən bizə məlum olduğu

kimi, Osmanlı dövlətinin Balkanlarda, eyni zamanda Kiçik Asiyada möhkəmlənməsinə Bizans imperiyası mane olmağa çalışmışdır. Bu məqsədlə, Bizans imperiyası və Avropanın digər xristian dövlətləri siyasi maraqları üçün böyük türk dövlətlərini də bir-birinə qarşı qoymağa çalışmışdılar.

Osmanlı dövləti yarandığı ilk gündən Bizans imperiyası ilə mübarizə aparmışdır. Böyük Səlcuq dövlətinin varisi olan Osmanlı dövləti, Səlcuq dövlətinin Bizans imperiyasının mənfur xarici siyasəti nəticəsində itirdiyi əraziləri geri qaytarmaq məqsədilə Bizansla müharibələr aparmışdır. Osmanlı dövləti XIV əsrin ortalarından başlayaraq Bizans imperiyası üçün təhlükəyə çevrilmişdir. Bizans imperiyasının zəifləməsi, Osmanlı dövlətinə öz ərazilərini genişləndirmək üçün əlverişli şərait yaratmışdır. XIV əsrin II yarısı -XV əsrin əvvəllərində Osmanlıların yürüşləri dövründə Balkanlarda feodal knyazlıqları arasında feodal müharibələri gedirdi və Balkan yarımadasını Osmanlı dövləti tərəfindən fəth edilməsini surətləndirdi.Osmanlı dövləti üçün Balkanlarda ən böyük təhlükə Bizans imperiyasından çox, Macar krallığından gəlirdi.

Bu mövzunun araşdırılması bu gündə aktual hesab edilir. XIV-XV əsrlərdə Osmanlı dövlətinin Balkanlarda möhkəmlənməsi məsələsinə bu günə kimi müxtəlif aspektlərdən yanaşılmışdır. Belə ki, sovet tarixçiləri məsələyə mövcud konsepsiya baxımından yanaşaraq, danışdığımız dövrdə Osmanlı dövlətinin Balkanlarda möhkəmlənməsi səbəblərini bir tərəfli araşdırmışdılar və osmanlıların Balkanlardakı uğurlarını yanlış olaraq işğal sözü ilə eyniləşdirərək, bu yürüşlərinin həmin xalqların sonrakı taleyində mənfi rol oynadığını sübut etməyə çalışmışlar. XIV-XV əsrlərdə Osmanlı imperiyasının Balkanlarda möhkəmlənmək uğrunda apardığı müharibələr, Osmanlı imperiyasının xarici siyasətində Bizans məsələsinin əsil mahiyyəti bir sıra sovet tarixçilərinin tədqiqatlarında obyektiv qiymətləndirilməmiş, türk xalqının yalnış olaraq, mədəniyyətdən uzaq bir xalq kimi göstərilmişdir. Sovet İttifaqı dağıldıqdan sonra Osmanlı imperiyasının tarixinə münasibət dəyişmiş və yeni baxış formalaşmışdır.

Belə ki, XIV-XV əsrlərdə Osmanlı imperiyasının Balkanlarda möhkəmlənməsi uğrunda apardığı mübarizə tarixinə S.D.Skazkinin, S.P.Karpovun. O.Eqerin əsərlərində obyektiv cəhətdən işıqlandırmaq üçün lazımi tarixi faktlar göstərilmişdir. Bəzi rus alimlərindən fərqli olaraq, bu tarixçilər mövzunun obyektiv həllini tapmağa nail olmuşdular. Lakin daha obyktiv tədqiqatları F.Körpülü, İ.H.Uzunçarşılı digər türkoloqların əsərlərndə görmək olar. Onlar qeyd edirlər ki, Osman Qazi qəhrəmanlığı, iti ağılı, torpağa, kökə, xalqa sıx bağlılığı ilə atası Ərtoğrul Qazinin dövründə diqqəti cəlb etmişdir. Osman Qazi 1281-ci ildə hakimiyyətə gəlmişdir [1, 240].Osman Qazinin ilk bəylik illəri nisbətən sakit keçmişdir. O, bəyliyinin Qərbində və Şərqində yerləşən başqa xalqlara qarşı heç bir sərt siyasətə yol vermirdi. Lakin, Bizans imperiasının sərhədlərində yerləşdirilən təkfurlar (Anadolu və Rumelidəki xristian bəylərinə verilən ümumi addır) türk torpaqlarına hücumlar edirdilər, əhali üzərinə ağır vergi qoyurdular, mallarını talan edib aparır-

dılar. Bu vəziyyət çox davam edə bilməzdi. Osman bəy Bizans şəhər və qalalarına yürüşlər etməyə başlamışdır. Onun ilk zəbt etdiyi qala, İnəgöl qalası idi. Bizanslılar bu hadisədən sonra yürüşlərini davam etmək üçün quvvəlrni topamağa başlamışdılar. Bizanslıların qüvvələrini birləşdirmək cəhdi Osman Qazini qorxutmamışdır. Bizanslılarla növbəti döyüş 1291-ci ildə türklərin qələbəsi ilə bitmişdir. Osman Qazinin qələbəsi bizanslılar arasında böyük çaxnaşmaya səbəb olmuşdur. Belə ki, onlar bilirdilər ki, türklərin döyüşdə qazandığı qələbə Bizansın yeni torpaqlarının fəth edilməsi üçün yol açacaqdır.

XIV əsrin ortalarından Bizans imperiyasının bölgələrində, əsasən də cənub-şərqi Avropada tez-tez üsyanlar baş verirdi, bu üsyanlar Bizans imperiyasının zəifləməsinin səbəblərindən biri idi. Bu dövrdə Bizans imperiyasından fərqli olaraq Osmanlı dövləti möhkəmlənməyə və güclənməyə başlamışdır. Osmanlı dövlətinin hərbi qüvələri feodal hərbi suvari dəstələrindən təşkil olunmuşdur və XIV əsrin ortalarından başlayaraq Bizans imperiyası üçün təhlükəyə çevrildi. Məhz bu dövrdən başlayaraq Osmanlı dövləti Bizans imperiyasının zəifləməsindən istifadə edərək, bir tərəfdən Bizans qalalarını ələ keçirir, bir tərəfdən də Anadoludakı bəylikləri özünə tabe etməyə, digər tərəfdən də Orta Asiyadan gələn soydaşları hesabına türk əhalisinin sayını artırmağa çalışırdı.

1302-ci ildə Osmanlı ordusu 5000 nəfərlik Bizans ordusunu məğlub edərək Qoyunhisarı zəbt etdi. Bir neçə il sonra,1306-cı ildə Osmanlı ordusu Ulubad, Qəstel, Kətə qalalarını da ələ keçirdi [2,744]. Osmanlı dövləti Balkan yarımadasının fəthinə 1354-cü ildən, Orxan Qazinin (1326-1359) dövründən başlamışdır. Osmanlılar getdikcə Balkanlarda nüfuzlarını genişləndirirdilər.

Sultan I Murad (1362-1389) hakimiyyətə gəldikdən sonra, Osmanlı dövlətilə Bizans imperiyası arasındakı münasibətlər daha da kəskinləşdi. Bunun nəticəsi olaraq, 1368-ci ildə I Murad Adrinonopolu (Ədirnə) fəth edərək onu Osmanlı dövlətinin paytaxtı elan etdi. Daha sonra, osmanlılar Frakiyanı zəbt edərək orda məskunlaşdılar. Osmanlı dövlətinin fəthlərinin qarşısını almaqda aciz olan Bizans bütün ümidlərini Qərbə bağlamışdır. Məhz buna görə, Bizans tarixində ilk dəfə olaraq Bizans imperatorları, Qərb saraylarından kömək istəməyə başladılar. Lakin bu missiya uğursuz oldu. Bu zaman ərzində,Osmanlı dövləti 1371-ci ildə Menderes çayı yaxınlığında Makedoniya hakimini məğlub etdi [3]. Dövrün müasirlərindən biri, sultan I Muradın zamanında kəskinləşmiş Osmanlı-Bizans münasibətləri və Bizans imperiyasının Osmanlı fəthlərinin qarşısını ala bilmədiyindən kədərlənərək belə yazmışdı: "Haqsızlıq hökm sürür və biz barbarların istədikləri kimi onlara xidmət edirik" [4,660]. İmperartor II Manuilin (1391-1425) hakimiyyət illərində Bizans-Osmanlı dövlətlərinin xarici siyasətlərində bir-birinə qarşı elə bir ciddi dəyişikliklər baş verməmişdir. Belə ki, bu dövrdə imperator II Manuil çalışırdı ki, nəzarətində olan torpaqları qoruyub saxlasın. Lakin XIV əsrin sonlarında osmanlılar Bolqarıstanı fəth etdilər. Bundan sonra Bizanslılar Konstantinopolun möhkəmləndirilməsinə başladılar.

20 iyun 1389-cu ildə serblər Kosovo döyüşündə məğlub oldular. Sultan I Muradın böyük zəfəri və son döyüşü oldu Kosova. Hakimiyyətə gələn I İldırım Bəyazid (1389-1402) Osmanlı dövlətinin sərhədləini genişləndirdi və osmanlıların qüdrətini daha da artırdı. Onun zamanında Osmanlı dövləti artıq imperiya oldu və Avropa qitəsindəki ərazisi 291 min km-dən 441 min km-dək, Asiya qitəsindəki ərazisi isə 208 min km-dən, 500 min km-dək artdı[5,242]. Orta əsrlərdə hələ heç bir hökmdar bu qədər geniş bir əraziyə malik deyildi. Osmanlı imperiyasının getdikcə qüdrətinin artması ətrafdakı Avropa dövlətlərini vahiməyə salırdı. Bolqarıstanın fəth edilməsindən sonra, macar kralı Sigizmund Avropa dövlətlərindən yardım istəmişdir. Osmanlılara qarşı mübarizəyə ilk növbədə Bizans imperatoru II Manuil başlamışdı. Çünki İstanbul artıq bir neçə il idi ki,osmanlılar tərəfindən mühasirədə saxlanılırdı. Bizans imperatorluğu osmanlılara qarşı xaç yürüşünün başlanması ideyasını alqışladı. Fransa, Almaniya, Belçika, İsveçrə, İngiltərə və digər Avropa dövlətləri, gələcəkdə başlarının üstünü ala biləcək təhlükəni dəf etmək üçün bir bayraq altında birləşməyi üstün tütdular.

Döyüş 28 sentyabr 1396-cı ildə, Dunay çayı yaxınlığındakı Nikopol (Nigbolu) yaylasında olmuşdur [6,217]. Macar kralı Sigizmund döyüşə əvvəlcə macar və eflak əsgərlərinin girməsini təklif etmişdir. Macarlar osmanlılarla əvvəllər də döyüşmüşdü və onların döyüş taktikasını bilirdilər. Lakin, fransız cəngavərlərinin komandanı Jan Pyer, osmanlıları məğlub etmək şərəfini kimsəyə vermək niyyətində olmadığını bildirmişdir. Hələ döyüş başlamazdan əvvəl,ciddi bir anlaşılmazlığın baş verməməsi üçün kral Sigizmund fransızların istəyini qəbul etmişdir. Bu döyüşdə bütün hazırlıqlara baxmayaraq İldırım Bəyazidin ordusu tam və qəti qələbə qazanmışdır. Bu tarixin ən qanlı döyüşlərindən biri olmuş, 130 minlik xaçlı ordusu 100 minə yaxın itki vermiş, 10 mini isə əsir düşmüşdür [7, 217]. 1396-cı ildə həyata keçirilmiş anti-osmanlı yürüşü Avropa dövlətlərinin tam məğlubiyyəti ilə başa çatmışdır və Konstantinopol yenidən təhlükə altına alınmıdır. Bu dövrdə Bizansa real kömək göstərməyə borclu olan provoslav Rusiya, ona heç bir kömək göstərə bilməmişdi. Çünki,bu zaman Rusiya özü “Rus torpaqlarının birləşdirilməsi” kimi ağır dövr yaşayırdı.

Beləliklə, XV əsrin əvvəllərində Bizans imperiyasının hakimiyyəti Konstantinopol və onun ətrafında olan əyalətlərlə məhdudlaşdırılmışdır [8,225]. Getdikcə Bizans imperiyasının süqutu yaxınlaşırdı. Lakin hadisələrin gedişində gözlənilmədən dəyişikliklər baş vermişdir. Osmanlı imperatoru İldırım Bəyazid 1402-ci ildə Ankara yaxınlığında əmirTeymura məğlub olduqdan sonra, Osmnlı imperiyanın yüksəlişində müvəqqəti durğunluq dövrü başlamışdır [9,187]. Bu hadisə Bizansın süqutunu 51 il müddətinə təxirə saldı. Paytaxtın müdafiəsini möhkəmləndirmək üçün imperator II Manuil vaxtdan səmərəli istifadə etmək məqsədilə, osmanlılarla diplomatik münasibətlərini yenidən davam etdirməyə çalışmışdı. Tarixçi Pükanın sözlərinə görə, guya Ankara döyüşündən sonra sultan Süleyman Konstantinopola gəlmişdi və imperatorun qarşısında diz çökərək demişdir: “Mən sənə oğul olacam,

sən də mənə ata ol, bundan sonra bizim aramızda heç bir münaqişə olmayacaq, yalnız məni Frakiyanın hakimi təyin et" [10,745].1403-cü il müqaviləsinə görə, Qara dəniz və Mərmərə dənizi sahillərindəki şəhərlər imperatora qaytarıldı və Bizans imperiyasının Osmanlı dövlətinə ödədiyi vergi ləğv olundu [11,746]. Bu hadisədən sonra Bəyazidin oğulları arasında hakimiyyət uğrunda mübarizə başladı və bu mübarizə 1411-ci ildə sultan Süleymanın taxtdan düşməsi ilə nəticələndi. Bizans hökuməti "barışmaz düşmənçiliyinə" güvənərək, sutanın oğlanlaından birini qardaşı Mehmetin üzərinə göndərmidir. Bizanslıların məqsədi, varislərin hansı biri qələbə qazansa, onu hakim təyin edərək "oğulluğa" qəbul etmək idi. Rus müəlliflərinin yazdıqlarına istinad etsək, hətta bu zaman sultan imperatora belə bir məktub da göndərmişdi: "Mən imperatora sədaqətli olacam, oğul ataya sədaqətli olduğu kimi" [13]. Buna baxmayaraq, sultan övladları Konstantinopolda girov kimi saxlanılırdı. Lakin tezliklə sultan I Mehmet (1413-1421) Frakiyanın bütün şəhərlərini, Fessaliyanın şəhər və kəndlərini, eləcə də Propontiddəki şəhərləri qaytardı [12, 215]. 1421-ci ildə sultan II Murad (1421-1451) hakimiyyətə gəldikdən sonara Osmanlı-Bizans münasibətlərində uzun bir fasilə hökm sürdü. Bu zaman II Muradın qardaşı, Mustafa Çələbi Bizansın köməyi ilə Ədirnə şəhərinə daxil oldu və özünü sultan elan etdi . İmperiyada ikihakimiyyətlik dövrü başladı. Sultan II Murad Anadolu torpaqlarında, Mustafa Çələbi Rumeli torpaqlarında sultan oldu. Bu parçalanma ancaq Bizansın xeyrinə idi. Mustafa Çələbinin Bizans imperatoru II Manuil ilə bağladığı sazişə görə, Giləbolu Bizansa qaytarılacaqdı. Lakin Mustafa Çələbi qalanı təslim etmədi. Ona kömək göstərən Bizans sərkərdəsi Dimitrus qalaya əsgər və sursat gətirməyə hazırlaşarkən, Mustafa Çələbi ona məktub göndərmişdi: "Mənim mübarizəm və qazandığım zəfər imperator II Manuilin mənfəəti üçün deyil. Mən müsəlman şəhərlərini yenidən fəth etmək istədim. Həzrəti Peyğəmbər şəfaət edərsə bu niyyətimi gerçəkləşdirəcəm. Buna baxmayaraq, mənim səninlə bağladığım sazişə də riayət edəcəyəm. Siz mənə etimad edə bilərsiz. Əsgərlərinə gəlincə, mənim artıq onlara ehtiyacım yoxdur. Geri dönməkdə sərbəstsən" [14, 89].

Bu hadisədən sonra Bizans imperatoru IIManuil, II Murada yaxınlaşmaq məcburiyyətində qaldı. Sultan II Murad yaranmış vəziyyətdən istifadə edərək, vəziri-əzəm İbrahim Paşanı imperatorun yanına göndərmidir. Lakin, Bizans imperatoru ilə görüşün heç bir nəticə əldə edilməmşdir. Çünki Bizans imperatoru, sultan II Muraddan Giləbolunun qaytarılması tələbilə yanaşı,sultanın iki qardaşlarını da girov kimi istəmişdir. Sultan II Murad mövcud olan girovluq sistemini ləğv etmək üçün atddığı ilk addım diplomatik münaqişəyə səbəb oldu. Təxminən, 1421-ci ilin sonlarında imperator II Manuil elçilərini sultanı taxta çıxması münasibəti ilə təbrik etmək üçün, onun sarayına göndərmişdi. O, II Muradın oğlu Mehmeti Konstantinopola göndərilməsini tələb etmişdir. Buna cavab olaraq, sultan II Murad imperatora cavabında yazmışdır: "Peyğəmbərin qoyduğu qaydanı pozmaq olmaz. Müsəlman uşağının kafir tərəfindən tərbiyə edilməsi yol verilməzdir. Əgər impe-

rator bizim mərhəmətimizi istəyirsə, o zaman əvvəlki qaydaya uyğun olaraq biz onun oğlu, o bizim atamız olsun” [15, 94].

Sultan II Murad osmanlı imperiyasının birliyini bərpa etdikdən sonra, sultan I İldırım Bəyazidin siyasətini davam edərək 1422-ci ildə Konstantinopola hücum etdi. Bu hadisədən sonra Bizans imperiyasının tənəzzülünün son mərhələsi başladı. 1430-cu ildə sultan II Murad Fessaliyanı Bizansdan alaraq Osmanlı dövlətinin tərkibinə qatmışdır. Vəziyyətin bu cür dəyişməsindən sonra Bizans hökuməti nəyin bahasına olursa olsun Qərbdən kömək istəmək qərarına gəlmişdir. Bu məqsədlə, 1439-cu ildə Ferrar-Florensiya kilsə məclisində (yığıncağında) Papanın dini hakimiyyətini qəbul etmək şərtilə provoslav və katolik kilsəsi arasında uniya imzalanmışdır [18, 357]. Belə bir şərtlə bağlanan müqavilə heç bir real köməkliyi ola bilməzdi. Əksinə, bu uniya Bizansın daxilində narazılığa səbəb olaraq, güclü siyasi mübarizəyə gətirib çıxartdı. Nəticə etibarı ilə, əksinə Bizansın osmanlılara qarşı qüvvələrini birləşdirməyə mane olmuşdur. Bizansdan fərqli olaraq, Papaya bu “birləşmə komediyası” yalnız provoslav kilsəsini özünə tabe etmək və burda öz kilsə iearxiyasını möhkəmləndirmək üçün lazım idi. Yuxarı siniflərin razılığına baxmayaraq, bu uniya Bizans xalqı tərəfindən qəti olaraq rədd edilmişdi. Bu dövrdə artıq Bizans imperiyası tam olaraq Osmanlı dövlətinin təsirinə düşdü. Hətta, yeni Bizans imperatoru VIII İohan Paleoloqun (1425-1449) hakimiyyətinin qanunləşdirilməsi üçün artiq sultanın icazəsi lazım idi. 6 dekabr 1443-cü ildə VIII İohan Paleoloqun imperator kimi təsdiq edilməsi xahişi ilə Georgi Franzgi, II Muradın yanına gəlmişdir [9 ,191]. Lakin bütün bunlara baxmayaraq, imperiyanı qorumaq ideyası və imperatorluq qüruru,XI Konstantini son saatlarına qədər Konstantinopolu müdafiə etməyə məcbur etmişdi. Belə ki, sultan II Mehmetin (1451-1481) 1453-cü il may ayında göndərdiyi ultimatuma Bizans imperatoru XI Konstantin Paleoloq cavab verərək yazmışdır: “İmperator, sultanla sülh şəraitində yaşamağa, tutduğu torpaqları onda saxlamağa, sultan tərəfindən qoyulacaq xəracı ödəməyə hazırdır,lakin, imperator şəhəri təslim edə bilməz-bundansa ölmək yaxşıdır” [10, 78].

Sultan II Muradın əsas məqsədi Konstantinopolun fəth etmək idi. Lakin Konstantinopolun fəthi II Murada deyil, onun oğlu sultan Fateh II Mehmetə (1451-1481) nəsib oldu. Konstantinopolun osmanlılar tərəfindən fəth olunmasının qarşısını I İldırım Bəyazidin 1402-ci il ildəki Ankara məğlubiyyəti almışdısa, bu dəfə artıq əvvəlki siyasi vəziyyətdən fərqli olaraq, Osmanlı imperiyasına Bizansın paytaxtı Konstantinopolu fəth etmək üçün heç bir maneə yox idi. Bizans imperiyasını qorumağa çalışan Avropa dövlətlərinin də buna gücü yetmədi.

1453-cü il mayın 29-da Konstantinopol fəth edildi. Konstantinopolun Osmanlı imperiyasının tərkibinə qatılmasılə Bizans imperiyası süqut etdi. XIV-XV əsrlərdə Osmanlı imperiyasının xarici siyasətində Bizans məsələsinə birdəfəlik və qəti olaraq Fateh sultan II Mehmet tərəfindən son qoyuldu.

## ƏDƏBİYYAT


1. Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri, B., 1995, səh. 240
2. Всемирная история. III том. М., 1957, стр. 744
3. Успенский Ф.И. История Византийской империи. III том. Л., 1948
4. Курбанов Г.Л. История Византии. М., 1984, стр.660
5. Həbiboğlu V. Культура Византии XIII-первая половина XV в.М., 1995, стр.217
6. Uzunçarşılı İ.H.. Osmanlı tarihi. İstanbul, 1952, səh.225
7. История дипломатии. I том, М., 1949, стр.187
8. М.В.Левченко. История Византии. М.-Л., 1940, стр.215
9. Новичев А.Д. История Турции. I эпоха феодализма (XI-XVIII века). Л.1963
10. Böyük İslam tarixi, X cild, İstanbul, 1992, səh.89
11. История дипломатия. I том. , М., 1949, стр.191
12. Körpülü F.. Osmanlı dövlətinin kuruluşu. Ankara, 1959, səh.78



**Аллахвердиева Гюльтакин Афат гызы**


**Внешняя политика османского государства в XIV-XV веках**

**РЕЗЮМЕ**


Статья посвщена вопросам внешней политики Османского государства в XIV-XV веках. В этот период важное место во внешней политике Османского государства знимало отношение с Византией, Балканскими государствами, а также борьба с христиаским блоком европейских государств.



**Allahverdieva Gultakin Afat**


**Foreign Policy Of The Ottoman State In XIV-XV Veah**

**SUMMARY**


The article is devoted to the foreign policy of the Ottoman state in the XIV-XV centuries. During this period, an important place in the foreign policy of the Ottoman state was occupied by relations with Byzantium, the Balkan states, as well as the struggle against the Christian bloc of European states.


*Rəyçi: dosent Pərvin Kərimzadə*